# “ACILI-ŞİRİNLİ GÜNLƏR”DƏN

### *2. YOLLAR, İNSANLAR*

Yazıçı Fatma Həsən qızının sənədli romanının diqqəti çəkən bir cəhətini ayrıca qeyd etmək lazımdır. Bu da ədəbi qəhrəmanın həyatını, əməli fəaliyyətini reallığa əsaslanaraq təqdim etməsidir. Müəllif ədəbi qəhrəmanın həyatdakı prototipini yaxşı öyrənmiş, bir xarakter kimi yadda qalan cizgilərini özünə xas təsvirlərlə canlandırmağa çalışmışdır. Əslində, müəllif həyati hadisələrdə demək olar ki, heç bir şişirtməyə yol verməmişdir. Sadəcə obrazı mənəvi mühitinə çox yaxın gördüyündən diqqət işığını mümkün qədər lazım olan tərəflərə yönəltməklə oxucuya bütöv bir mənzərə təqdim edə bilir. Demək olar ki, əsərin “Aspirant” adı ilə başlanan fəsli yeni bir dövrü əhatə edir.

Mətbəədə baş mühəndis vəzifəsini tutan Muğdatoğlu daim öz üzərində çalışır, xüsusi ilə təhsilini artırmaqda həvəsli idi. Pedoqoji inistutda Riyaziyyat fakültəsinin axşam şöbəsində təhsil alır. Eyni zamanda şərait yaranan kimi Moskva Poliqrafiya institutunun iki illik kursunda qiyabi oxumalı olur.

Moskva mühiti onun həm dünya görüşünə, həm də poliqrafiya sahəsindəki biliklərinin təkmilləşməsinə xüsusi təsir göstərir. Moskva mətbəələrinə tez-tez baş çəkir, buradakı yenilikləri mənimsəyir, Bakı mətbəələri ilə nəhəng Sovetlər İttifaqının paytaxtındakı mətbəələri müqayisə edir. Uyğun və fərqli cəhətləri özü üçün aydınlaşdırmağa çalışır. İki illik kursu uğurla başa vurur. Amma artıq bu iki il ərzində təkcə Moskvanın yox, o vaxtki Sovetlər İttifaqının mətbəələrinə çalışan mütəxəssislərlə, həm də bu sahənin elmi mütəxəssisləri ilə dostluq münasibəti qura bilmişdi. Bakıya qayıdandan sonra ittifaq poliqrafiya sənayesi elmi-texniki cəmiyyətinin rəhbərliyi ilə məktublaşır, Moskva Poliqrafiya İnistutunun direktoruna məktub göndərir, bir sözlə görkəmli mütəxəssisləri Bakıya müşahidəyə dəvət eləyir. Onun bu təşəbbüsü Bakıda da təqdir olunduğundan müşavirə çox yüksək səviyyədə təşkil olunur. Şəddadın göstərdiyi münasibət, qonaqpərvərlik hər kəsi razı salır. Həmin günlərdə dənizkənarı parkda gəzinti vaxtı görkəmli poliqrafçı alimlərdən biri onu aspiranturaya dəvət edir. Bu onu çox sevindirirdi. Müəllif poliqrafiya üzrə tədqiqatçı olacaq Muğdatoğlunun imtahan həyəcanlarını, qəbul dövrü məqamları aydın, publisistik dildə yetərincə verə bilib: “Vaxt yetişdi. Şəddad Moskva Poliqrafiya insitutununda imtahan verdi. Öz sərrast cavabları, məntiqi mühakiməsi ilə komissiya üzvlərini razı sala bildi. Zarafat deyil, bir yerə düz üç namizəd vardı. Lakin iki imtahanın ikisindən də Şəddad əla qiymət ala bildi və 1971-ci ildə aspiranturaya qəbul olundu. Sevindirici hal idi ki, o, poliqrafiya sahəsi üzrə Azərbaycanda ilk aspirant idi. Şəddadın dissertasiya mövzusu da çox aktual idi: “Poliqrafiya sahəsində rentabeliyi artıma yolları”. Belə bir mövzunu da ilk dəfə olaraq Şəddad işləməli idi. O, imtahandan sonra yenidən Bakıya öz sevimli işinə qayıtdı. Uğurlu imtahan sorağı və aspirant adıyla geri qayıdan Şəddadı kollektiv sevinclə qarşıladı.” Beləliklə, Moskva Poliqrafiya İnistutunun aspirantı kimi qayıdan Şəddad Cəfərov tədqiqatın planını tezliklə hazırlayır, inistuta göndərir. Ona elmi rəhbər təyin olur. Növbəti hissədə Muğdatoğlunun elmi rəhbəri ilə - Elya Vladimirovna Nikolskaya ilə görüşü “Üç qərənfil” hekayətində verilib. Kiçik bir hekayətdir. Muğdatoğlu plan işini verməyə gedəndə öyrənir ki, elmi rəhbəri xəstəxanadadır. Üç qərənfil alıb onun yanına gedir. Səmimi görüş, doğma münasibət arada ünsiyyət körpüsü olur. Bu kiçik bir epizoddur. Ancaq, bu epizodda biz elm naminə tərəflərin necə ləyaqətlə bir-birinə yanaşmalarını görürük. Müəllif Şəddadın elmi rəhbərinin timsalında öz yetirməsinə həssas münasibət göstərən hətta, mümkün qədər analıq qayğısı ilə yanaşan alimin obrazı ilə milli ayrı-seçkilikdən kənar həssas bir ana obrazını yaradır. “İlk övlad, ilk sevinc adı ilə təqdim olunan hekayət ailə özülünün möhkəmliyindən, sağlamlığından bəhs edir. Şəddad ilk övladının gəlişi ilə sanki yeni bir aləmə düşür. İndi onun məsuliyyəti daha da artmışdı. Mənəvi yükünün üzərinə ata məsuliyyəti də əlavə olunmuşdur: “Gənc ata böyük qardaşı Xudadatı evlərinə dəvət etdi. Xudadat çoxdan fikirləşib uşağa ad tapmışdı. Odur ki, məsələdən hali olan kimi:

- Körpəmizin adını İdrak qoyuram - sevinclə dedi.

Şəddadla Fatma razılıqla bir-birinin üzünə baxdılar.”

Fatma Həsən qızı bir ömür yolunu ədəbi qəhrəmanı ilə birgə keçir. Muğdatoğlunun elmi işini yazıb tamamlaması üçün Moskva qayğılarını əhatə edən dövrü oxucuda dərin təəssürat oyadır. Çətinliklərə baxmayaraq oxumağın, öyrənməyin böyük səadət olduğuna hər kəsi inandırır. Muğdatoğlunun əməli fəaliyyəti əsasən kitab çapı ilə bağlı idi. Bu səbəbdən də yazıçılarla, şairlərlə söz-sənət adamları ilə onun görüşləri tez-tez olurdu. Müəllif Muğdatoğlunun “Şəkər Aslanla görüş” hekayəti Poliqrafçı ilə şairin adi görüşü deyil. Ədəbi, tarixi bir görüş kimi təqdim olunur. Nəhayət daha maraqlı bir hekayətlə tanış olduq. Sənədli romanın bu hissəsində Muğdatoğlunun elmi işini müdafiə etməsindən bəhs olunur. Bu fəsildə Muğdatoğlunun elmi rəhbərinin dərin hissiyatla yazılmış, geniş məzmuna malik bir məktubu da verilib. Professor Elya Nikolskaya yazırd: “Ş.M.Cəfərov kimi aspirantın işinə rəhbərlik etmək mənə xoş təsir bağışladı, çünki o, qeydlərə diqqətlə qulaq asır, bəziləri ilə razılaşmadıqda isə öz mülahizələrini əsaslandırmağı bacarırdı. Poliqrafiyada zəngin iş təcrübəsinə malikdir, qeyri-adi əməksevərlik göstərirdi.

Şəddad Muğdat oğlu iqtisad elmləri namizədi elmi dərəcəsini almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etmişdir. O, mənim və mənim ailə üzvlərimin xüsusi hörmətini qazanmışdır, çünki o hər şeyə öz əməyi sayəsində və həmişə müasir vəzifələr səviyyəsində nail olmuşdur.

Dissertasiyanın müdafiəsindən sonra da Şəddad Muğdat oğlu ilə əlaqələr qırılmamışdır. Moskvaya gələndə o həmişə evimizin qonağı olmuşdur. Fərəhləndirici haldır ki, təsərrüfat mexanizminin təkmilləşdirilməsi sahəsində yeni ideyalara maraq və bu ideyaları Bakıda, Ulyanovskdə işlədiyi müəssisədə tətbiq etmək meyli sönməmişdi.

Moskvada Şəddad Muğdat oğlunun çoxlu dost və tanışları var. Elə dostlar ki, ona böyük hörmət bəsləyir, poliqrafiya müəssisələrinin iqtisadiyyatı, təşkili və planlaşdırılması sahəsində onun yüksək professional biliklərini qeyd edir, onu maraqlı həmsöhbət və nəcib insan kimi tanıyırlar”. Bu məktubda yazılanlar hər şeyi deyir. Və sanki sənədli romanın bir insanın həyat həqiqəti olduğunu təsdiq edir.

“Yeni kitab mətbəəsi” hissəsində Muğdatoğlunun istehsalatda daha irəliyə




çıxmasından, rəhbər vəzifədə xüsusi işgüzarlığından və daha çox insanlara qayğıkeşliyindən bəhs edilir. “Kiçik qardaş”da Muğdatoğlunun kiçik qardaşı Əbdülmanafı Lənkəran mətbəəsinə göndərməsini cənub bölgəsində mətbəə işinin təşkili ilə bağlı qeydləri oxuyuruq. “Mətbəədə işlər yaxşılaşdıqca” fəaliyyət dairəsi də genişlənir. Təşkilatçılığı, bacarığı haqqında rəhbər orqanlar məlumatlanır onu daha mühüm vəzifələrə irəli çəkmək haqqında düşünürlər. “Yeni iş yeri”ndə biz Muğdatoğlunu sosial təminat sahəsində çalışan görürük. İndi daha həssas olmalı idi. Təqaüdçülərlə, əlillərlə işləmək, onların qayğılarını öyrənmək, problemlərini həll etmək... böyük enerji, təmkin tələb edirdi. Şəddad bu sahədə problemləri yoluna qoya bildi. Nəsimi rayonunda o vaxt Muğdatoğlunu əhalinin daha çox qayğıya ehtiyacı olan zümrəsinin doğması kimi tanıyırdılar. Poliqrafiya, nəşriyyat sahəsində yenidən problemlər kəskinləşəndə çıxış yolunu yenə onu bu sahəyə qaytarmaqda gördülər. Beləliklə, Ş.Cəfərov “Yenidən doğma iş”indədir. Nəşriyyatın yeni direktoru, hissəsində poliqrafiya sahəsindəki fəaliyyətin davamı verilir. Onsuz da istehsalatda mübahisələr, gərginliklər çox olur. Rəhbər işçinin təmkinindən aslıdır ki, o, prosesi normada saxlaya bilsin. Bu artıq səksəninci illərin əvvəlləri idi. Respublika rəhbərliyinə müraciət olunur. Şəddad Cəfərov bacarıqlı kadr kimi Ulyanovski şəhərinə dəvət olunurdu. Beləliklə, “Ulyanovskaya Pravda” dövrü başlanır. Burada bir məsələni ayrıca qeyd etməyi lazım bilirəm. Şəddad Ulyanovski şəhərində böyük hörmət və nüfuz qazanır. Geri qalmış, az qala dağılmaqda olan nəhəng poliqrafiya müəssisəsini demək olar ki, yenidən həyata qaytarır. Böyük şəhərin yazıçıları, jurnalistləri, eləcə də partiya elitası ona böyük sevgi və hörmətlə yanaşırlar. Onun bu şəhərdəki hörmətinin sayəsində sonralar Qarabağ hadisəsi başlananda Azərbaycanın haqq işini müdafiə edən məktublar axır Bakıya. Eləcə də Sovet rəhbərliyinə ünvanlanan həmin məktubları Şəddad müəllimin səmimiyyətini qəbul edən Rusiyanın tanınmış, nüfuzlu jurnalistləri, yazıçıları idi.

Sözün müstəqil mənasında Ulyanovski şəhərinin ziyalıları Şəddad müəllimin timsalında Azərbaycan xalqının özünü görürdülər.

Sənədli romanın müəllifi Muğdatoğlunu bir ləyaqət obrazı kimi təqdim edir. Ona görə də onu ən müxtəlif kollektivlərdə ayrı-ayrı xalqların nümayəndələri arasında, başqa-başqa məkanlarda təsvir edir. Müxtəlif zaman və mnəkan fərqlərinə baxmayaraq onun mənəvi saflığının nüfuzu üçün necə həll edici olduğunu göstərir. Ulyanovskidəki mühitdə nəşriyyat direktorunu təkcə vəzifə sahibi kimi yox, mütəxəssis kimi yox, həm də bir insan kimi görür, cəmiyyətdə mənəvi bütövlüyünü saxladığının şahidi oluruq: “Aradan az müddət keçmişdi. Şəddadın kollegiya üzvlüyünün nəticəsi özünü göstərdi. Şəddadın nüfuzu get-gedə yüksəlir və onu ictimai işlərə cəlb edirdilər. Bu dəfə də onu rayon deputatı seçdilər və rayon sənaye və xalq istehlakı malları üzrə komissiyaya rəhbərlik etmək işi də ona etibar edildi. 1986-cı ilin sentyabrında isə Şəddad Cəfərovu Kuybışev Plan İnistitutunun Ulyanovsk filialına idarəetmə mövzusu üzrə mühazirə oxumağa dəvət etdilər”. Onun elmi təfəkkürü istehsalatın idarə olunmasında çevik düşüncəsi artıq təcrübə məktəbi idi. Ona görə də onun mühazirələrini maraqla dinləyir, müəyyən məsələlər haqqında suallar verirdilər. O da bütün bunlara yetərli cavabları ilə dinləyicilərini razı sala bilirdi. Bir sözlə onun bacarıqlı poliqrafçı, nüfuzlu rəhbər zəngin mənəvi olan şəxsiyyəti hər vaxt diqqət mərkəzində olurdu. İmkan düşdükcə yumorlu hekayələr yazır, vilayətin qəzet və junrallarında dərc etdirirdi. Bir yazıçı kimi, jurnalist kimi də şöhrətlənirdi. İstər-istəməz onu yaradıcılıq təşkilatlarının yığıncaqlarına da dəvət edir, şirin söhbətlərini dinləməkdən zövq alırdılar: “Beləliklə, Şəddad Cəfərov qısa müddətdə Ulyanovsk vilayətinin bütün təşkilatlarında böyük nüfuz qazandı. Artıq vilayətdə yaxşı tanınan eloğlumuz 1989-cu ildə növbəti qurultayda vilayət həmkarlar təşkilatının rəyasət heyətinə seçildi.” Şəddad vəzifə və hörmət pillələrində sürətlə irəliləyirdi. Bəlkə də çoxlarına bu sürət qəribə gələ bilərdi. Amma, bu irəliləmələr onun böyük zəhmətinin bəhrəsi idi. Ətrafın mənəvi mühitində onu ləyaqət rəmzi kimi dəyərləndirir, haqqında yetərincə ağız dolusu hörmətlə danışmaqdan çəkinmirdilər: “Onun barəsində “Pravda” və digər mərkəzi qəzetlərdə oxuyanda adamın ürəyi dağa dönür. Bununla belə, fikirləşirsən: böyük iş qüvvəsinə malik olan belə bir insanı, belə bir şəxsiyyəti öz xalqına xidmət etməkdən görəsən kim uzaqlaşdırıb?” Belə demək mümkünsə, uzaq Rusiyada Ş.Cəfərovun qazandığı hörmət, nüfuz ona kiminsə hədiyyəsi, peşkəşi deyildi. Mətbuatda ardıcıl olaraq vilayətin sosial-iqtisadi problemlərini yazıları ilə yada salır, fikir bildirir, təkliflər verirdi. Elə bu yanaşmalarına görə də, onu SSRİ Jurnalistlər İttifaqına üzvlüyə qəbul edirlər. Və bu faktı yazıçı Fatma Həsənqızı da “Ağılı-şirinli günlər” sənədli romanında diqqətdən kənarda qoymur: “Şəddad Ulyanovsk Jurnalistlər İttifaqının üzvü kimi də şəhər üçün xeyli iş görmüş və bu sahənin adamlarının da rəğbətini qazanmışdı”. Bəli, prinsipial olmaq, əqidəsinə sadiq qalmaq insana imkan vermәz ki, o, nöqsanlara göz yumsun, həqsizliğə “hə” desin. Ş.Cəfərov məhz bu keyfiyyətlərinə görə həm şəhər rəhbərliyinin, həm də yerli mətbuatın xüsusi rəğbətini qazanmışdı.

Beləcə bir insan ömrünün ən maraqlı fəsilləri ilə sənədli roman oxucunu tanış edir. Onun kimliyi haqqında müfəssəl məlumatla, maraqlı, yadda qalan cizgilərlə portret yaradılır. Portret demiş əsərin “Portret” hissəsi də diqqəti cəlb edir. Rəssam Diyagelevin çəkdiyi portret dəyərli sənət nümunəsi kimi görənlərin yadından çıxmır.

***(Davamı var)***